https://doi.org/10.36719/2706-6185/45/81-86

**Rahilə Qurbanova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0008-4589-004X
rahila.qurbanova@mail.ru

# Zərdüştilik təlimində mənəvi-əxlaqi dəyərlər

**Xülasə**

Məqalədə, Zərdüştilik təlimində olan mənəvi-əxlaqi dəyərlər araşdırılmış, xeyir və şərin davamlı mübarizəsi, bu mübarizədə insanların xeyirin, yaxşılığın tərəfini seçməsi izah olunur. Zərdüştilik təlimində insanın düzgün yaşamasına, daxili təmizliyinə, əxlaqi məsuliyyətinə, ədalətli, səxavətli, dürüst olmasına, yaxşılıq və pislik arasında düzgün seçim etməsinə xüsusi önəm verilir. Zərdüştilik yaxşılıq və pislik arasında gedən davamlı mübarizədə, insanın yaxşılıq yolunu seçməsini, pislik, yalan, şərdən uzaq olmasını göstərilir. Eyni zamanda insanlar və bütün canlılar üçün həyatın məqsədinin yaxşılıq və harmoniya yaratmaq olduğunu vurğulayır. Zərdüştilik "xeyir fikir, xeyir söz, xeyir əməl" üzərində qurulmuş, maddi və mənəvi cəhətdən bizə məlum olan ilk kamil insan ideyasını irəli sürən bir təlimdir. Bu insanın özünü təkminləşdirməsini və kainatda harmoniyanı bərpa etməsini, cəmiyyətin daha ədalətli, yaxşı, ahəngdar inkişaf etməsini tövsiyə edir. Zərdüştilik təlimi insanın yüksək mənəvi-əxlaqi dəyərləri mənimsəməsini və bu dəyərləri gündəlik həyatlarına tətbiq etməsini təbliğ edir.

***Açar sözlər:*** *xeyir, şər, kamil insan, fikir, söz, əməl, dəyər, mənəvi, əxlaqi, xeyirxahlıq, həqiqət, ədalət*

**Rahila Gurbanova**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0008-4589-004X
rahila.qurbanova@mail.ru

# Spiritual-moral Values in Zoroastrianism

**Abstract**

The article examines the moral and ethical values in Zoroastrianism, explains the constant struggle between good and evil, and explains how people choose the side of good and goodness in this struggle. Zoroastrianism places special emphasis on a person's right living, inner purity, moral responsibility, being just, generous, honest, and making the right choice between good and evil. Zoroastrianism shows that in the constant struggle between good and evil, a person should choose the path of goodness, stay away from evil, lies and slander. At the same time, it emphasizes that the goal of life for people and all living things is to create goodness and harmony. Zoroastrianism is a teaching that is based on good thoughts, good words, and good deeds, and that puts forward the idea of the first perfect human known to us in material and spiritual terms. It recommends that a person improve himself and restore harmony in the universe, and that society develop more justly, well, and harmoniously. Zoroastrianism promotes the adoption of high moral and ethical values and the application of these values in daily life.

***Keywords:*** *good, evil, the perfect person, thought, word, deed, value, moral, ethical, benevolence, truth, justice*

## Giriş

Zərdüştilik iki başlanğıcın, Xeyir və Şərin vəhdəti, mübarizəsi, qarşıdurması üzərində yüksələn, mövcudatla bağlı təsəvvürlər və insana yönəlmiş humanizm ideyaları üzərində qurulan bir təlimdir. Bu təlimdə mənəvi-əxlaqi dəyərlərə, insanın düzgün yaşamasına, daxili təmizliyinə, əxlaqi məsuliy

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

yətinə, ədalətli, səxavətli, dürüst olmasına, yaxşılıq və pislik arasında düzgün seçim etməsinə xüsusi önəm verilir. Zərdüştilik təlimində "xeyir fikir, xeyir söz, xeyir əməl" prinsipinə də xüsusi yer verilmişdir. Çünki üç əsas davranış sahəsi olan düşüncə, söz və hərəkət insanın mənəvi-əxlaqi dəyərlərini müəyyən edir. Bu üç əsas davranış sahəsi bir-biri ilə vəhdət təşkil edir və insanı düşüncələrində, sözlərində, əməllərində həmişə düzgün olmağa çağırır. Zərdüştilik mənəvi-əxlaqi prinsiplər üzərində qurulmuş, maddi və mənəvi cəhətdən bizə məlum olan ilk kamil insan ideyasını irəli sürən bir təlimdir.

Zərdüştilik təlimində əsas mənəvi-əxlaqi dəyərlərdən biri isə Aşhadır (ədalət). Aşha sözü həm mücərrəd olaraq ədaləti, həm də dünya nizamını, ahəngini və düzgünlüyünü ifadə edən bir prinsipdir. Bu prinsipə görə, insanın həyatının əsas məqsədi ədalətli və düzgün olmasındadır. Eyni zamanda insan səxavətli olmalı, başqalarına kömək və yardım etməlidir. İnsanlar öz əməllərinə görə məsuliyyətli və dürüst olmalıdır. Aşha, kainatın qanunlarının və nizamının bir hissəsidir. Zərdüştilik inancına görə, Ahura Mazda bütün yaradılışları Aşha ilə idarə edir. Təbiətdə və insan davranışlarında harmoniya təmin etmək üçün Aşhanın qorunması vacib sayılır. Hər bir insan da öz əməlləri ilə Aşhaya xidmət etməli və kainatın harmoniyasını qorumağa çalışmalıdır. İnsanlar Aşhaya uyğun yaşamaqla öz ruhlarını təmizləyir və mənəvi kamillik əldə edirlər (Steblin-Komenski, 2005).

Zərdüştilik təlimində təbiətə və canlılara da böyük hörmət göstərmək vacib məsələlərdən biridir. Zərdüştilik inancına görə təbiət tanrının təzahürüdür, buna görə də insanın təbiəti qoruması və düzgün yanaşması vacibdir.

**Tədqiqat**

Zərdüştilik təlimində ədalət və həqiqət kimi mənəvi dəyərlər böyük əhəmiyyət kəsb edir. Bu dəyərlər insanın daxilindəki və xaricindəki əxlaqi saflığı, düzlüyü və qanunlara uyğun yaşamağı göstərir. İnsanlar doğru və ədalətli olmalı, hər zaman həm özləri, həm də başqaları üçün yaxşı, doğru olanı seçməlidirlər. Bu dəyərlər bir-biri ilə sıx əlaqəlidir və insanın həyatında yüksək əhəmiyyətə malikdir. Bu təlimində həqiqət anlayışı həm doğrunun, həm kosmosun, həm də təbiət və əxlaqın harmoniyasını ifadə edir. Həqiqət, yalnız obyektiv həqiqəti deyil, həm də doğru düşüncələr, hərəkətlər və sözlər ilə uyğun olan həyat tərzini təmsil edir. Bu kainatın və təbiətin qanunlarına uyğun yaşamağa istiqamətlənmiş bir anlayışdır. Zərdüştiliyə görə insanlar bu qanuna uyğun yaşamalıdırlar.

Zərdüştilik təlimində ədalət anlayışı yaxşılıqla bağlıdır. Ədalət insanın həyatında düzgünlük, balans, nizam və harmoniyanın təmin edilməsini ifadə edir. Eyni zamanda ədalət təbiət qanunlarına uyğun yaşamaqla əlaqədardır. Bu təlim də həqiqət və ədalət anlayışları bir-birini tamamlayır. Həqiqət insanların doğru düşünmə, doğru hərəkət etmə imkanlarını təmin edir, ədalət isə düzgünlük və harmoniya prinsiplərinin həyata keçirilməsini təmin edir. Zərdüştilik təlimində həqiqət və ədalət insan həyatının mənəvi-əxlaqi təməlini təşkil edir. Bu təlimə görə həyatın mənası yaxşılıq və ədalətə xidmət etməklə, pisliyi və haqsızlığı məğlub etməkdir (Chistyakova, 2005, s. 384).

Bu təlim Zərdüşt tərəfindən təxminən e.ə.VII əsrin II yarsı e.ə. VI əsrin əvvəllərində yaradılmışdır. Zərdüştilik tək Allahlığı təbliğ edən müstəqil din kimi meydana gəlmişdir. Tək Allahlıq ideyasına görə Zərdüştü peyğəmbər adlandırmışlar. Zərdüştilik dualizm xarakterli bir təlimdir. Burada dünyada mövcud olan iki başlanğıc xeyir və şər, işıq və qaranlıq, nur və zülmət, həyat və ölüm, ədalət və ədalətsizlik arasında gedən mübarizə əks olunur. İki bir-birinə əks olan qüvvələrin-Xeyirlə Şərin qarşıdurması və sonda Xeyirin qələbəsi ilə başa çatması göstərilir. Xeyirlə Şər arasında gedən bu əbədi müharizədə Xeyirin qələbə çalması nəticəsində insanların xoşbəxtliyə çatacağı bildirilir. Zərdüştə görə insan ömrünün mənası Əhrimənlə mübarizə apararaq Hörmüzə kömək göstərməsi və bunun nəticəsində Hörmüzün qələbə çalması, şərin yer üzündən silinməsidir. Ona görə də hər bir insan öz fəaliyyəti ilə Hörmüzə kömək etməlidir.

Zərdüştilik təlimində ilk dəfə olaraq Şər problemi qarşıya qoyulmuş, Xeyirlə Şər bir-birindən ayrılmış və fərqləndirmişdir. "Zərdüştlə bəşər tarixində yeni era başladı. Xeyir və Şər, Doğru və Yalan, Haqq və Nahaq ayrıldı. Bu təlimin mərkəzində, şübhəsiz, xeyirxah fikrə, ağıla, səsə, sözə, hərəkətə, əmələ malik insan dururdu. Numata, huhta, huvareşta. Bu "Avesta"da belə ardıcıllıqla verilir. Numata-tanrı ağlı, huhta-tanrı səsi, huvareşta-tanrı əməli. Aydın görünür ki, ən önəmli olan hər kəsdə Tanrıdan gələn ağlın, sözün və əməlin bərqərar olması idi" (1/6). Bu təliminin əsas ideyası insanı düzgün düşünməyə, düzgün danışmağa və düzgün əmələ çağırır. Bu ideyaya görə insan xeyirli

düşünməli, xeyirli söz söyləməli və xeyirli iş görməli, ədalətli, xeyirxah, əməksevər olmalı, zülüm və qanunsuzluqlardan uzaq olmalıdır. Hətta insanlardan mənəvi təmizliyə və düzlüyə ciddi əməl etmələrini tələb edirdi (Vəliyev, 2002).

Zərdüşt özünə qədər mövcud olan Allahların hamısını inkar edir, Hörmüzü yeganə xeyirxah Allah kimi kainatın və bütün varlığın yaradıcısı hesab edir. "Zərdüşt dedi: Ey Əhura, yaranmışların ruhuna elə bir güc və bacarıq əta et, doğruluqdan və pak davranışdan elə bir qüdrət yarat ki, onun gücü ilə sülh və əmin-amanlıq bərpa olsun." (8/27) Zərdüştün inancına gorə Xeyirlə Şər arasında gedən mübarizə nəticəsində dünya mövcud olur. Hörmüz (Ahura Mazda) dünyada maddi və mənəvi nizamı yaradan, təbiət qanunlarını qoruyan tanrıdır. Onun məqsədi yalanın və pisliyin həqiqət tərəfindən məğlub edilməsidir. Yalnız insanlar öz əməlləri ilə Şər üzərində qələbə çalandan sonra səadətə qovuşduracaq. Çünki insanlar pis əməlləri ilə Şərə güc verir, yaxşı əməlləri ilə isə Şərin gücünü zəiflədir. Şərə qarşı mübarizədə hər kəsə azadlıq vermiş, seçim insanların ixtiyarına buraxmışdır.

Zərdüştilikdə Hörmüz baş Allah və Günəşin yer üzündə atributu hesab edilir. Ona görə də bu din atəşpərəstlik adlanırdı. Bu təlimə görə bir tərəfdə xeyirxahlıq, yaxşılıq, sağlamlıq, digər tərəfdə isə pislik, günah, xəstəlik durur. Hörmüzə inananların ruhu öləndən sonra dörd gün mühakimə edilir və onlar mələklər olur. Dörd gündən sonra, Cinvat körpüsündən keçirlər və həmin körpü bu aləmdən o biri aləmə gedən yoldur. Zərdüştilik təlimində, dünyanın yarandığı ilk gündən axirət gününə kimi bir istiqamətdə inkişaf etdiyi, ölən insanların dirilməsi, o dünyada dindar insanları cənnət, dindar olmayanları, günahkarları isə cəhənnəm əzabı gözlədiyi göstərilir. Bu təlim insana pislikdən çəkinməyi, yaxşı əməllərlə məşğul olmağa, yaxşı işlər görməyə çağırır və eyni zamanda insanın mənəvi inkişafına kömək edir (Qasımzadə, Hacıyev, 1982).

Zərdüştilik inancına görə, ilk insan "Gayomart" dünyaya gələndən sonra bütün ölülərin ruhları təkrarən bədənlərinə qayıdaraq bir yerə toplaşacaqlar. Yaxşılar pislərdən ayrılacaq, düzgün yaşayanlar, yaxşılar cənnətə gedəcək, pislik edənlər isə cəhənnəmdə cəzalandırılacaqlar, üç gün qalandan sonra bütün insanlar atəşin içindən keçəcəklər, atəş pisləri təmizləyəcək və hamı Hörmüzün (Ahura Mazda) ölkəsinə daxil olacaq. Zərdüştilik təlimində bu cəzalar sonradan təmizlənmə və yenidən doğulma prosesi kimi qəbul edilir. Onlar ruhun varlığına, əbədiliyinə və təkrarən yenidən bədəndə təzahür etməsinə inanırdılar (Şərifova, 2002).

Zərdüştiliyə görə kainat üç min il ruh aləmi kimi mövcud olmuş və üç min ildən sonra Ahura Mazda kainatı, planetləri, ulduzları, başqa göy cisimlərini yaratmışdır. Zərdüştə görə Ahura Mazda özünü şeytana qarşı gücləndirmək üçün canlı yaratmaq qərarına gəlmişdir. Lakin ilk insanı yaratmazdan əvvəl tanrıları, mələkləri yaratmış və kainatın idarə olunmasını onlara tapşırmışdır. Bitkiləri yaratdı, heyvanı yaratdı, sonra bir kişi və bir qadın yaratdı. Beləliklə nəsillər artdı, dünya yarandı. " İlk başlanğıcda, düçüncə aləmində iki əkiz göhər-yaxşı və pis düşüncə, əməl və davranış meydana çıxdı. Bu iki göhərdən bədxah adamlar yox, xeyirxah adamlar doğrunu seçdilər. Bu zaman iki göhər bir-birinə rast gəldi, dünyada ilk olaraq varlıq və yoxluğun təməlini qoydular. Bununla bağlı olaraq son hesab günündə yalanpərəstlərə ən pis həyat və doğru tərafdarlarına ən yaxşı yaşayış məskan olacaqdır. Bu iki göhərdən yalanpərəst ən pis davranışı seçdi, göy tərəfindən ən yaxşı paltar geymiş doğruluq və aydın əməlləri ilə sevinclə Ahura Mazdanın razılığını əldə edən adamlar pak ruhu seçdilər. (8/28)

Zərdüşt insanları daha ədalətli, daha təmiz olmağa, hər cür natəmizliyə qarşı mübarizə aparmağa, odun, suyun və torpağın təmizliyini qorumağa çağırır. Ona görə də ölən insanların cəsədlərini nə suya atırdılar, nə də torpaqda dəfn etmirdilər. Onlar suyu, torpağı müqəddəs bildikləri üçün suyun və torpağın təmizliyini qoruyurdular. Ölən insanların cəsədlərini ən hündür yerlərə qoyurdular ki, onu qurd-quş yesin, hətta sümüklərini də torpağa basdırmırdılar və onları xüsüsi yerlərdə saxlayırdılar.

Zərdüşt inancına görə, bütün günahları odla təmizləmək mümkündür, ona görə də oda hörmətlə yanaşırdılar, odu həmişə yanar halda xüsusi yerdə saxlayırdılar. Atəşgah adlanan məbədlərdə odun ətrafında müəyyən mərasimlər keçirirdilər. Zərdüştilik təlimində atəş təmizlik, saflıq simvoludur. Çünki od həm təmizliyi, həm də Tanrının işığını təmsil edir. Atəşi Hörmüzün ruhu hesab edirdilər, ona görə də atəşi müqəddəs sayılırdı. "Zərdüştilikdə odun və od kultunun əhəmiyyətini qiymətləndirməmək mümkün deyildir. Avestada və zərdüştilikdə od o qədər böyük rol oynamışdır ki, zərdüştiləri çox zaman -atəşpərəstlər adlandırırdılar. Od (Atar, sonralar Azər) ilahi ədalətin

(avestada Aşa) ifadəsi yaxud simvolu hesab olunurdu. Zərdüşt səcdagahlarında odu sönməyə qoymur, ona səcdə edilir, onun şərəfinə məbədlər ucaldılırdı.” (8/17)

Onlar atəşi müqəddəs hesab etdikləri üçün onu belə qruplaşdırmışdırlar:

I - Ev atəşi, yəni oçaq atəşi qəbul edilirdi.

II - Qurban atəşi, bu daim yanan və pislikləri uzaqlaşdıran atəş idi.

III - İnsanların meydanlarda yandırdığı və ətrafına toplandığı, üzərindən keçərək günahlarının bağışlanmasına inandığı atəş idi.

Zərdüştilik təliminə görə, atəş günahları təmizləməklə yanaşı, eyni zamanda ilahi güc və qüvvət verən bir qaynaqdır. Onların inancına görə, insanın ruhu da atəşdən yaranıb, öləndən sonra da göydəki atəşlə birləşəcəkdir. Milli adət-ənənəmiz olan Novruz bayramında tonqalların qalanması, şamların yandırılması, odun üstündən atlanmaqla bütün ağırlıqların, xəstəliklərin odda yanaraq təmizlənməsi inancı zərdüştilikdən gələn adətdir. Od insanların düşüncəsində müqəddəslik rəmzi kimi yaşayıb və bu günə kimi də gəlib çıxıb. Məsələn, ocağa su tökməyin günah sayılması və digər bu kimi adət-ənənələri misal göstərə bilərik. Odun müqəddəs sayılması, insanı hər cür pisliklərdən, şərdən təmizləməsi, xeyirin qələbə çalmasına inamdan irəli gəlir. Zərdüştilikdə dörd ünsür od, su, torpaq, hava müqəddəs hesab edilsədə, bu dörd ünsürün içərisində odu ən müqəddəs və ilahi qüvvə hesab edirdilər. Novruz bayramında qeyd edilən od, su, hava, torpaq çərşənbələrinin qeyd edilməsi Zərdüştilikdən gəlmədir (Şərifzadə, 1996).

Zərdüştilikdə əkinçilik, maldarlıq, təsərrüfat işləri görməyə böyük üstünlük verilir. Heyvanlara, xüsusən it və inəyə hörmətlə yanaşmaq, insanlarla yaxşı rəftar edmək xüsusi yer tutur. Burda həm cismani, həm də mənəvi təmizliyə üstünlük verilir və yalan danışmaq ən pis keyfiyyət, şərin simvolu kimi göstərilir. “Avesta”nın estetikası hər şeyin saflığına əsaslanır, insandan cismani təmizlik (bədənin, paltarın, evin və digər əşyaların təmiz saxlanmasını) və əxlaqi təmizlik (niyyətlərin, əməllərin və hərəkətlərin təmiz olmasını) tələb edir. İnsanların və cəmiyyətin xeyrinə əmək xüsusən əkinçi əməyi ən yaxşı, ən yüksək nemət sayılır. Əkinçilərin, birinci növbədə, əkinçi və maldarların adətləri yüksək qiymətləndirilir.” (3/9)

Zərdüştilik təliminin bütün mətnləri onun müqəddəs kitabı olan “Avesta”da cəmlənmişdi. Burda göstərilir ki, Zərdüştiliyin əsas məqsədi bütün yaradılanlardan fərqli olaraq kamil insanın yaradılmasıdır. “Zərdüşt ilk dəfə olaraq bildirmişdir ki, ali məqsəd bütün yaranışlardan fərqlənən, Xeyiri, yaxud Şəri seçmək iradəsinə və tarixin gedişinə təsir göstərmək bacarığına malik olan insanın yaradılmasıdır. Zərdüştiliyin daxilində formalaşmış ideyalar hazırda mövcud olan dünya dinlərində-xristianlıqda və islamda mühüm yer tutur.” (8/18)

Zərdüştiliyin müqəddəs kitabı “Avesta” e.ə. I minilliyin I yarsında formalaşmışdır. “Avesta” 1771-ci ildə Fransız tədqiqatçısı Anketil Dü-Perron tərəfindən ilk dəfə fransız dilinə tərcümə edilmiş və Avropada yayılmışdır. “Avesta” əvvəlcə şifahi şəkildə rəvayət kimi yayılıb, sonra b.e.ə. VI-V əsrlərdə ilk dəfə 12 min inək dərisində qızıl həriflərlə yazıya alınıb. İlk əvvəl 21 kitabdan ibarət olub. Makedoniyalı İsgəndərin işğalı dövründə tibb, fəlsəfə və astronomiya hissələri yunan dilinə tərcümə edilib, sonra “Avesta” yandırılıb. 21 kitabdan cəmi dörd kitab bu günə gəlib çıxıb.

1. Vendidad (Videva)- “Divlər haqqında qanun adlanır”. Bu hissə 22 fəsildən ibarətdir. Burada əsasən Hörmüzlə Zərdüştün dialoqu və Xeyirin Şərlə mübarizə aparması əsas yer tutur. Burada həm qanunlar, hüquq məsələləri, həm də təmizliyə və ənənələrə riayət etmək, cinayətləri və günahları mühakimə etmək, xəstəliklərə və pis ruhlara qarşı mübarizə üsulları haqqında məlumat verilir (Şəms, 1995).
2. Vispered- “Hər şeyin ağası” adlanır. Bu hissə 25 fəsildən ibarətdir. Bu fəsildə ailə-əxlaq məsələlərinə və insanın mənəvi təmizliyinə aid mühakimələr var. Eyni zamanda qadının xarakterindən və mənəvi keyfiyyətindən bəhs edir.
3. Yasna- “Dua etmək, ritualları icra etmək, sitayiş etmək” deməkdir. 72 fəsildən ibarətdir. “Avesta”da əldə olunan ən geniş hissədir. Əsas hissəsi “Qatlar”dır. Zərdüştün fərdi yaradıcılığı hesab edilir. Bu hissədə Zərdüştün ilahi qüvvələrə müraciəti və duaları daxildir. Yasna Zərdüşt təliminin əsas dini mərasimlərini və fəlsəfi mövzularını özündə cəmləşdirən bir hissədir. Burada həm də Ahura Mazdaya dua etməkdir.

4. Yaşt (Yaştiha) – "Pərəstiş, hörmət etmə" deməkdir. Bu hissə bizə dağınıq halda gəlib çatmışdır. Yaşta Allahları və xeyirxah mələkləri müdafiə edən qüvvələri tərif edən qədim himlərin özünəməxsus toplusudur.

Avestaya görə dünyada maddi və mənəvi olan hər şey xeyir və şər olmaqla iki qismə bölünür. İnsan bunlardan hər hansını seçməsində sərbəstdir. Zərdüşt gözəllik və xeyirxahlığı, ailədə kişinin əməksevər, qayğıkeş, güclü, qadının isə namuslu, ismətli, ailəcanlı və eyni zamanda kişi ilə qadının bərabər hüquqa malik olmasını da qeyd edir. Zərdüştilik təlimində insanın mövqeyi önə çəkilir, hər bir insan pis ruhlara qarşı mübarizə apararaq Hörmüzə (Ahur Mazdaya) kömək etməli, insan öz xeyirxah əməlləri ilə həmişə yaxşılıq etməli, xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməl prinsipinə əməl etməyə çalışmalıdır (Zerdüştlüğün Kutsal Kitabı Avesta, s. 170).

Zərdüştilik İranda yaranmış, sonra Azərbaycanda, Orta Asiyada, Hindistanda və Əfqanıstanda yayılmışdır. Azərbaycan Zərdüştiliyin yayıldığı ilk yerlərdən biri olmuşdur. Azərbaycan ərazisində, yəni Suraxanı kəndində olan "Atəşgah" onların diqqətini çəkmiş və həmişə oranı ziyarət etmişlər. Bu "Atəşgah məbədi" tarix-memarlıq abidəsi kimi Azərbaycan dövləti tərəfindən qorunur. Azərbaycan Prezidenti İlham Əliyevin 19 dekabr 2007-ci ildə Suraxanıdakı Atəşgah ərazisini "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu elan etməsi ilə bağlı sərəncam imzalamışdır. Eyni zamanda "Atəşgah məbədi" UNESKO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni irsin ilkin siyahısına daxil edilmişdir (Milli Virtual-Elektron Kitabxananın e-nəşri Zərdüşt peyğəmbər Avesta).

## Nəticə

Zərdüştilik təlimində əsasən kainatın iki qüvvəsi arasında xeyir və şərin davamlı mübarizəsi və bu mübarizədə insanların xeyirin, yaxşılığın tərəfini seçməsini izah olunur. Bu təlimdə göstərilir ki, insanlar öz həyatlarını düzgün əxlaqlı qurmalı, yaxşılıq etməli, öz həyatına, əməllərinə nəzarət etməlidir. Eyni zamanda insanların doğru və yanlış arasında seçim etmək hüququ və məsuliyyəti olduğu da göstərilir. İnsanlar yaxşılıq və pislik arasında seçim edərək öz talelərini müəyyənləşdirirlər. Zərdüştilik təliminin mənəvi-əxlaqi dəyərinin təməlində "yaxşı fikir, yaxşı söz və yaxşı əməl" anlayışı dayanır, yəni insan düzgün düşünməli, doğru sözlər deməli və yaxşı əməllər həyata keçirməlidir. Zərdüştilikdə Ahura Mazda yeganə və tək Tanrı olaraq qəbul edilir. Ahura Mazda kainatın yaradıcısıdır və hər şeyin mənbəyidir. Əhriman isə Ahura Mazdanın əks gücüdür və dünyadakı pisliyin və qarışıqlığın mənbəyidir. Bu təlim yaxşılıq və pislik arasında gedən davamlı mübarizədə, insanın yaxşılıq yolunu seçməsini, pislik, yalan, şərdən uzaq olmasını tövsiyyə edir. Zərdüştilik, insanlar və bütün canlılar üçün həyatın məqsədinin yaxşılıq, işıq və harmoniya yaratmaq olduğunu vurğulayır. İnsanları həyatlarını Ahura Mazdanın təlimlərinə uyğun şəkildə yaşamağa çağırır. Zərdüştilik insanı yaxşılıq və işıq yolunda hərəkət etməyə, əxlaqi məsuliyyət daşımağa, həmçinin dünyada ədalət, sülh, harmoniya yaratmağa, pislikdən uzaq olmağa çalışır. Eyni zamanda insanın özünü təkminləşdirməsini və kainatda harmoniyanı bərpa etməsini, cəmiyyətin daha ədalətli, yaxşı, ahəngdar inkişaf etməsini tövsiyə edir. Zərdüştilik insanların öz daxili güclərini kəşf etməklə dünyada harmoniya yaratmağa çalışan bir təlimdir. Bu təliminin mənəvi- əxlaqi prinsipləri sülhü, əmin-amanlığı qorumağa və xeyirxah, əməksevər, ədalətli, kamil insan olmağı təbliğ edir. İnsan dünyada baş verənlərə görə və öz seçimlərinə, hərəkətlərinə görə məsuliyyət daşıyır. Ona görə də insan pis düşüncələrdən, hərəkətlərdən və hisslərdən uzaq durmalıdır. Zərdüştilik təlimi insanın yüksək mənəvi-əxlaqi dəyərləri mənimsəməsini və bu dəyərləri gündəlik həyatlarına tətbiq etməsini təbliğ edir.

## Ədəbiyyat

1. Steblin-Komenski, İ. M. (2005). *Avesta. (X. M. Hacıyev, Trans)*. Bakı: «Apostroff».
2. Chistyakova, M. V. (2005). *Avesta. Khorde Avesta (Mladshaya Avesta) / Podgotovka avestiyskogo teksta, perevod, predisloviye, kommentariy*. SPb., 384.
3. Vəliyev, E. (2002). *Azərbaycanda zərdüştilik*. B., 135.
4. Qasımzadə, F., Hacıyev, T. (1982). *Avestadan bu günədək*. B., 52.
5. Şərifova, L. Ç. (2002). *İngilis-Amerkan ədəbiyyatşünaslığında "Avesta"problemi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtorefaratı*. B., 36.

6. Şərifzadə, B. (1996). *Zərdüşt, Avesta, Azərbaycan...(maq sivilizasiyası)*. B: "Elm", 324.
7. Şəms, İ. (1995). Avesta. B., 75.
8. *Zerdüştlüğün Kutsal Kitabı Avesta*.pdf 170.
9. *Milli Virtual-Elektron Kitabxananın e-nəşri Zərdüşt peyğəmbər Avesta* www.kitabxana.net

Daxil oldu: 18.12.2024
Qəbul edildi: 27.02.2025